# “Əcnəbi vətəndaşların Azərbaycan Respublikasında təhsili və qarşıda duran vəzifələr” ilə bağlı 02 aprel 2010-cu il 122 saylı Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya qərarının icrasını təmin etmək üçün Təhsil Nazirliyinin 14 may 2010-cu il tarixli əmrində nəzərdə tutulan işləri həyata keçirmək məqsədilə Azərbaycan Respublikası təhsil nazirinin əmri

**ƏMR EDİRƏM:**

1. Metodiki Əlaqələndirmə Şurasının tərkibi təsdiq edilsin (əlavə 1);

2. Metodiki Əlaqələndirmə Şurasının Əsasnaməsi təsdiq edilsin (əlavə 2);

3. Ali təhsil müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, Metodiki Əlaqələndirmə Şurasının işinə cəlb olunan mütəxəssislərin səmərəli işləməsi üçün müvafiq şərait yaradılsın;

4. Təhsil nazirinin müavini (E.Qasımov) və Beynəlxalq əlaqələr şöbəsinin müdiri (Q.Novruzov) bu əmrdən irəli gələn müvafiq tədbirləri həyata keçirsinlər;

5. Əmr “Azərbaycan müəllimi” qəzetində, “Təhsil xəbərləri” məcmuəsində dərc edilsin;

6. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

Əsas: müvafiq dərkənarla Nazir müavini E.Qasımovun təqdimatı, Təhsil Nazirliyinin kollegiya qərarının icrasını təmin etmək məqsədilə 14.05.10-cu il tarixli, 567 saylı əmri.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***

---

**Əlavələr**

**1. Metodiki Əlaqələndirmə Şurasının tərkibi**

**2. Metodiki Əlaqələndirmə Şurasının Əsasnaməsi**